Ədəbiyyat qəzeti
5 dekabr / 2020

*Kamal ABDULLA*

# AZAD MİRZƏCANZADƏ İLƏ HƏMMÜƏLLİFLİKDƏ

Akademik Kamal Abdulla filoloq alim, şair, yazıçı, dramaturq və elm təşkilatçısı kimi təkcə folologiya, daha ümumi desək, humanitar elmlərin çərçivəsində fəaliyyət göstərməyib. O bir çox əsərlərində məntiq və fizika qanunlarından, nəzəriyyələrindən də ustalıqla yararlanıb. Kamal Abdullanın tez-tez söylədiyi "Biz "Kitabi-Dədə Qorqud"u filoloqların inhisarından çıxarmalıyıq" sözlərində gizlənən məna, əslində, bizə onu deyir ki, filologiyanın müasir dövrdə bir elm kimi mövcudluğu və inkişafı onun digər elmlərlə əlaqəsində mümkündür. Bu mənada Kamal Abdulla nə qədər ağılasığmaz olsa da ilk təşəbbüsü və nümunəni də özü göstərmişdir.

Əslində, həm ixtisası, həm çalışdığı sahə, həm əsas maraq dairəsi texnika, neft sənayesi istiqamətdə olan və nəinki Azərbaycanda, dünyanın bir çox ölkələrində, bütün keçmiş SSRİ məkanında tanınmış elm xadimi, akademik Azad Mirzəcanzadə Bakı Slavyan Universitetində filoloji təhsil alan magistrantlara və doktorantlara mühazirə oxuyurdu. Bu təşəbbüs məhz həmin universitetin rektoru olmuş (2000-2014) Kamal Abdulla tərəfindən irəli sürülmüşdü. Təəccüblü idi, amma real idi. Görkəmli alim Azad Mirzəcanzadə bu mühazirələri oxuyarkən auditoriyada tək deyildi, Kamal Abdulla həm də onunla bu prosesdə partnyor idi.

> *Bütün ədəbiyyat Düma ilə Coys arasında...*
>
> *Kamal ABDULLA*

Birgə oxunan mühazirələr təkcə magistr və doktorantların deyil, universitet əməkdaşlarının və kənar təhsil ocaqlarında çalışan elm adamlarının da diqqət mərkəzində idi. Bu auditoriyada olan alimlər də bəzən fikirlərə münasibətlərini bildirirdilər. Bu iki elm fədaisinin auditoriya qarşısında apardığı dialoq, auditooriyanın onlarla həmahəngliyi sanki elmi tamaşa idi.

Burada oxunan mühazirələrin əsasında 2003-cü ildə "Bakı Slavyan Universitetində mühazirələr" adlı rus dilində kitab çap edildi. Həmin kitab Kamal Abdullanın filologiyanı dəqiq elmlərin qanadlarında daha uzaqlara götürmək missiyasının, fənlərarası əlaqənin qurulması işinin ən bariz nəticəsi oldu.

> **Peyğəmbərin yaranması üçün həm da gərəkdir ki, qaranlıq fon ola.**
>
> *Kamal ABDULLA*

"Bakı Slavyan Universitetində mühazirələr" kitabında ədəbiyyatda və incəsənətdə modellər, zərurət və təsadüf, ədəbi mətnlər üzərində analizin dəqiq elmlər baxımından texnologiyası, bədii mətnlərin riyazi analizləri, dil faktorları, müasir rus elmi ədəbiyyatının dili, mədəniyyət və etika və digər müxtəlif məsələlərlə bağlı mülahizələr öz əksini tapmışdır. Ümumilikdə mühazirələr dəqiq elmlər və bu elmlərin ortaya qoyduğu qanun və qanunauyğunluqların humanitar elmlərin, xüsusən ədəbiyyatşünaslıq və dilçiliyin tədqiqat obyektlərində istifadə olunmasının şərhinə həsr edilmişdir. Ədəbiyyat və incəsənətdə mövcud tədqiqat modellərini dəqiq elmlərin tədqiqat modelləri ilə qarşılaşdıran müəlliflər dəqiq və humanitar elmlərdə təsadüf və zərurət hesab edilən halları nümunələr əsasında müəyyən edir, təbiət hadisələrinin, yaxud təfəkkür məhsulu olan sənət nümunələrinin kəmiyyət və keyfiyyət prizmasından təhlilini aparırlar.

Birgə müəlliflıklə nəşr edilən bu mühazirələr kitabı Azərbaycan təhsil tarixində dəqiq və humanitar elm xadimlərinin bir auditoriyada ilk tandemidir deyə bilərik. Bu həm də müasir elm tariximizdə Kamal Abdullanın interdissiplinar missionarliyi də hesab edilə bilər.

*Sərraf BALAXAN*